

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 106 (21.767)

*6 iyun 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 3 iyun tarixli sərəncamları ilə su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları da vardır.

**Bağırov Vilayət Əsgər oğlu**
**Camalov Səbahəddin Mürsəl oğlu**
**Qədimalıyev Yusif Qədimalı oğlu**
**Rəsulov Əmir Cəfər oğlu**
"Tərəqqi" medalı ilə
**Rəsulov İbrahim Əsəd oğlu**
"Əməkdar mühəndis" fəxri adı ilə təltif edilmişlər.

## Muxtar respublikada muzeylərə kollektiv gedişlər davam edir

İyunun 4-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin, "Nuh yurdu" qəzeti redaksiyasının, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərin və Naxçıvan Şəhər Polis İdarəsinin kollektivləri Naxçıvan Biznes Mərkəzində olublar.

Burada onlara muxtar respublikanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə ətraflı məlumat verilib.

Bildirilib ki, mərkəzdə muxtar respublikada istehsal olunan 360-dan çox növdə müxtəlif məhsullar nümayiş etdirilir. Burada milli dəyərlərimizin mühüm nümunələri olan xalçaçılıq, dekorativ-tətbiqi sənət, dulusçuluq, rəssamlıq və ağac üzərində oyma işləri də sərgilənir.

Diqqətə çatdırılıb ki, sahibkarlığın inkişafı sahəsində həyata keçirilən tədbirlər muxtar respublikada istehsal olunan məhsulların çeşidinin və keyfiyyətinin artmasına səbəb olub. Bu da daxili tələbatı ödəməklə yanaşı, həm də sahibkarlıq müəssisələrinin ixrac imkanlarını artırır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada muzeylərə kollektiv gedişlər davam etdirilir.

**Xəbərlər şöbəsi**

## Sənayenin dinamik inkişafı təmin edilmişdir



***Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq bu gün muxtar respublikamızda iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, güclü iqtisadiyyatın yaradılması üçün sənayenin inkişafı əsas şərtdir. Bu istiqamətdə dövlət müstəqilliyimizin əldə olunmasından ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında yeni müəssisələr istifadəyə verilmiş, mövcud müəssisələrin fəaliyyətinin bərpası və yenidən qurulması təmin edilmişdir. Aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada çörəkbişirmə, şəkər, mineral su, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılmışdır. Bu dövr ərzində investisiya qoyuluşuna görə ən böyük layihələrdən biri olan Naxçıvan Sement Zavodu, minik avtomobillərinin istehsalını həyata keçirən Naxçıvan Avtomobil Zavodu fəaliyyətə başlamışdır.

Sənayedə aparılan mühüm tədbirlər məhsul istehsalının artımına müsbət təsir göstərmiş, 2016-cı ildə muxtar respublikada 942 milyon manatdan artıq həcmdə sənaye məhsulu istehsalı qeydə alınmışdır. 2016-cı ildə istehsal olunmuş sənaye məhsulunun həcmi 1995-ci illə müqayisədə 103 dəfə, 2000-ci illə müqayisədə 69 dəfə artmışdır.

2016-cı ildə istehsal edilmiş sənaye məhsulunun 95,4 faizi emal sənayesinin payına düşmüşdür. Ümumi sənaye məhsulunun böyük bir hissəsinin emal sənayesi tərəfindən təmin olunması muxtar respublikada bu sahənin dinamik inkişafından xəbər verir. Qeyd edək ki, emal sənayesi kənd təsərrüfatından və mədənçıxarma sənayesindən əldə edilən məhsulların işlənildiyi və müxtəlif sahələrdə istifadəyə hazır vəziyyətə gətirildiyi sahə olub, iqtisadiyyatın özəyini təşkil edir.

Əldə olunmuş uğurların nəticəsi kimi hazırda ümumi daxili məhsul istehsalının tərkibində ilk yeri sənaye sahəsi tutur. Belə ki, 2004-cü ildə ümumi daxili məhsul istehsalının sahə strukturunda sənayenin xüsusi çəkisinin 10,6 faizdən 2016-cı ildə 27,8 faizədək yüksəlməsində muxtar respublikada iqtisadi və sosial sahələrin kompleks inkişafı istiqamətində qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", Naxçıvan Muxtar Respublikasının 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası xüsusi rol oynamış, təkcə 2016-cı ildə bu sahəyə 10 milyon 322 min manat həcmində kreditlər verilmişdir. Həyata keçirilən mühüm tədbirlər sahibkarların fəaliyyətinə stimul yaratmış, sənaye məhsulunun tərkibində özəl bölmənin payı 2004-cü ildə 54 faiz olmuş, 2016-cı ildə isə 96 faizə çatmışdır.

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi, rəqabətədavamlı yeni məhsul növlərinin istehsalı daxili tələbatı ödəməklə yanaşı, ixracın həcminin də ilbəil artmasına müsbət təsir göstərmişdir. 2016-cı ildə muxtar respublikada 419 milyon 121 min ABŞ dolları dəyərində ixrac qeydə alınmışdır ki, bu da 2004-cü ildəki müvafiq göstəricidən dəfələrlə çoxdur. 2016-cı ildə ümumi ixracın 76,4 faizini sənaye, 23,6 faizini isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. İxracın dinamik artımı səmərəli məşğulluğun və iqtisadi sabitliyimizin əsas göstəricisidir.

Sənayenin dinamik inkişafı bu sektorda işləyən işçilərin say tərkibinin artımına da ciddi təsir göstərmişdir. Belə ki, 2016-cı ildə sənaye sektorunda 15987 nəfər işçi çalışmışdır ki, bu da 2004-cü ildəki müvafiq göstəricidən 5 dəfə çox olmuşdur. Bu dövr ərzində sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 2004-cü ilə nisbətən 4 dəfə artaraq 2016-cı ildə 370,8 manat təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Naxçıvanda akademik Həsən Əliyevin 110 illik yubileyi münasibətilə elmi konfrans keçirilib



***İyunun 5-də Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində təbiətşünas-alim, akademik Həsən Əliyevin 110 illik yubileyi münasibətilə elmi konfrans keçirilib.***

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov açaraq bildirib ki, böyük alim, Azərbaycanda ekologiya elminin banisi, akademik Həsən Əliyev Azərbaycanın müasir tarixinin ən parlaq simalarından biridir. Görkəmli akademikin 110 illik yubileyi münasibətilə təşkil olunmuş "Həsən Əliyev-110" mövzusunda elmi konfransın Beynəlxalq Ətraf Mühitin Mühafizəsi Günündə keçirilməsi isə böyük ekoloq-alimin təbiətin müdafiəçisi kimi fəaliyyətinə verilən yüksək dəyərin nəticəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxışında bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 7 fevral tarixli Sərəncamı ilə akademik Həsən Əliyevin 110 illik yubileyi ölkə səviyyəsində qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Akademik Həsən Əliyevin 110 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən muxtar respublikada da müxtəlif tədbirlər keçirilir. Gənclərin və tələbələrin Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiyaları təşkil edilir, Naxçıvan şəhərindəki görkəmli alimin adını daşıyan küçədə yenidənqurma işləri aparılır. "Həsən Əliyev-110" mövzusunda elmi konfrans da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən keçirilir.

Qeyd olunub ki, akademik Həsən Əliyev təbiətşünas və coğrafiyaçı, torpaqşünas və ekoloq-alim kimi nəinki Azərbaycanda, eyni zamanda dünya miqyasında tanınmış elm xadimidir. O, Azərbaycan elminə layiqli töhfələr vermiş, əsasən, torpaqşünaslıq, ekologiya, botanika, biocoğrafiya, meşəşünaslıq, bitkiçilik, təbii ehtiyatların qorunub saxlanması, səmərəli istifadəsi kimi fundamental problemlərlə bağlı tədqiqatlar aparmışdır. Akademik Həsən Əliyevin əsərlərində qeyd olunan ekoloji problemlər və onların həlli yolları bütün dövrlər üçün öz aktuallığını saxlamaqdadır. Azərbaycanın bütün ərazilərində mühüm tədqiqatlar aparan akademik Həsən Əliyev muxtar respublikamızın da ekologiyası ilə dərindən maraqlanıb, bu qədim diyarın zəngin təbiətini tədqiq edib, təbiətin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə olunması ilə bağlı təkliflər verib. Sevindirici haldır ki, bu gün görkəmli alimin Naxçıvan ekoloji mühiti, zəngin təbiətinin qorunması ilə bağlı arzuları reallığa çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızda sağlam ekoloji mühitin yaradılması həyata keçirilən müxtəlif istiqamətli tədbirlərin tərkib hissəsinə çevrilib. Naxçıvanda hər il yeni yaşıllıq zolaqları, meyvə bağları salınır, meşəsalma və meşəbərpa işləri aparılır, fauna və floramızın qorunması və zənginləşdirilməsi diqqətdə saxlanılır. Bunun nəticəsində bir vaxtlar yaşıl örtük sahəsi ümumi ərazinin bir faizini təşkil etməyən muxtar respublikada bu gün 12 faizdən çox ərazi yaşıllıqlara bürünüb.

Ömrünü Azərbaycan təbiətinin qorunmasına və zənginləşdirilməsinə həsr etmiş akademik Həsən Əliyevin xatirəsi muxtar respublikada əbədiləşdirilib. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı yaradılıb, 2009-cu ildə parkın ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb. Həmçinin "Araz" Elm-İstehsalat Birliyinə və Naxçıvan şəhərindəki küçələrdən birinə akademik Həsən Əliyevin adı verilib.

Akademik Həsən Əliyevin fəaliyyətinin gələcək nəsillər üçün əsl tərbiyə və nümunə məktəbi olduğunu söyləyən Rəhman Məmmədov keçirilən konfransın da akademik Həsən Əliyev irsinin, onun yaratdığı məktəbin elmi cəhətdən öyrənilməsi və təbliğində mühüm rol oynayacağına inandığını bildirib.

Elmi konfransda Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək deyib ki, akademik Həsən Əliyev çətin, lakin şərəfli ömür yolu keçib. Alimlərə örnək olan bu ömrün yarım əsrdən çoxu ölkəmizdə coğrafiya, torpaqşünaslıq elmlərinin inkişafına, ətraf mühitin mühafizəsinə və ekologiya məsələlərinə həsr edilib. Onun monoqrafik əsərləri elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. Həsən Əliyev dünyanın bir sıra ölkələrində keçirilən müxtəlif konfranslarda, seminar və simpoziumlarda iştirak edib.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov diqqətə çatdırıb ki, təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili Həsən Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil edib. Azərbaycan təbiətinin, xüsusilə meşələrin qorunması, mühafizəsi və bərpası onun əsas vəzifələrindən biri idi. Həsən Əliyevin uzun illər rəhbərlik etdiyi Təbiəti Mühafizə Komitəsi meşələrin mühafizəsi və bərpası, həmçinin respublikanın ayrı-ayrı rayonlarında yaşıllaşdırma üzrə böyük tədbirlər həyata keçirib. Görkəmli alim, akademik Həsən Əliyevin təbiətin mühafizəsinə dair başladığı, həyata keçirdiyi işlər indi də davam etdirilir.

Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin direktoru Bəhruz Məmmədov çıxış edərək bildirib ki, alimin elmi-ictimai fəaliyyəti çoxşaxəli olub. O, təbiət elmləri sahəsində bir çox elmi-tədqiqat institutlarına rəhbərlik edərək elmin aktual problemlərinin həlli üçün böyük səy göstərib. Akademikin təşəbbüsü ilə Botanika İnstitutunun əməkdaşları tərəfindən axtarış-tədqiqat işləri aparılaraq nadir abidə ağacların, unikal meşəliklərin olması müəyyən edilib. Elmi fəaliyyətinin əsas istiqamətini meşə torpaqlarının öyrənilməsinə yönəldən və bu sahədə ilk dəfə olaraq meşə torpaqları laboratoriyası yaradan görkəmli akademikin tövsiyələri əsasında torpaqlardan səmərəli istifadə olunması prosesi həyata keçirilməkdədir.

Sonda tədbir iştirakçıları akademik Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş sərgiyə baxıblar.

**"Şərq qapısı"**

İcmal

# Ulu öndərin parlaq dühası, uzaq gələcəyə hədəflənmiş müdrik siyasəti Naxçıvanın bu gününə və gələcəyinə nur saçır

## Ötən ayın mənzərəsinə nəzər yetirdikdə bir daha bunun şahidi oluruq

***Müstəqil Azərbaycan Respublikası bugünkü mövcudluğunu və inkişafını xalqımızın ümummilli lideri Heydər Əliyevə borcludur. Müstəqilliyə, Milli Qurtuluşa gedən yolda Onun fəaliyyətinin Naxçıvan dövrü isə xüsusi əhəmiyyətə malikdir. Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə dövlət quruculuğu prosesini məhz Naxçıvandan başlayıb, 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə gəldikdən sonra respublikamızı Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etməklə milli dövlətçilik irsimizə, milli prinsiplərimizə, tariximizə sahib çıxıb. Ümummilli liderin fəaliyyəti milli ideyanı gerçəkliyə və tarixi taleyə çevirib, Onun Vətənə sədaqət nümunəsi olan şərəfli həyatında ölkəmizə, həmçinin doğulub boya-başa çatdığı Naxçıvana bağlılığı, Azərbaycanın bu qədim diyarına tükənməz məhəbbəti və ardıcıl qayğısı nəsillərə nümunə olub. Bütün Azərbaycan xalqı kimi, qədirbilən naxçıvanlılar da əvəzolunmaz liderin ölkəmiz naminə gördüyü bütün bu işləri heç vaxt unutmur, dahi şəxsiyyətin siyasi məktəbinin layiqli məzunları Onun əziz xatirəsini daim yad edir, Heydər Əliyev irsinin təbliğinə xüsusi diqqət yetirirlər. Məhz buna görədir ki, hələ sağlığında Naxçıvanda ulu öndərin abidəsi ucaldılıb, həyat və fəaliyyətinə həsr olunmuş muzey yaradılıb.***



Hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikasında ümummilli liderin anadan olmasının 94-cü ildönümü təntənəli tədbirlərlə qeyd olunub.

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və tədbir iştirakçıları Heydər Əliyev Muzeyinə gələrək ümummilli liderin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Ali Məclisin Sədri Heydər Əliyev Muzeyinə yeni eksponatlar təqdim edib.

Həmin gün Ali Məclisin Sədri muxtar respublikanın Əməkdar rəssamı Həbibə Allahverdiyevanın ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Rənglərdə zamanın təcəssümü" adlı fərdi rəsm sərgisinə baxıb.

Son illər milli və müasir memarlıq üslubunda inşa olunan çoxmənzilli ictimai yaşayış binaları qədim Naxçıvan şəhərinin arxitektura quruluşunu daha da zənginləşdirib, sakinlərin müasir və rahat mənzillərlə təminatına səbəb olub. Mayın 10-da – ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümündə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində 8 mərtəbədən ibarət yeni yaşayış binası istifadəyə verilib. İsti, soyuq və rütubətədavamlı izolyasiya qatına malik olan binada mənzillərin hər birinin ümumi sahəsi 240, yaşayış sahəsi isə 220 kvadratmetrdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə maraqlanıb. Ali Məclisin Sədri binanın müasir mühəndis-texniki tələblər və iqlim şəraiti nəzərə alınaraq inşa olunduğunu bildirib, bundan sonra aparılacaq tikinti işlərində də bu amillərin nəzərə alınmasını tapşırıb.

Blokadanın yaratdığı ciddi çətinliklərə baxmayaraq, ötən illər ərzində böyük zəhmətlə, vətənpərvərliklə görülən genişmiqyaslı işlər, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikamız bu gün mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi dünyada şöhrət qazanır. Bu sırada beynəlxalq idman yarışlarının da yer alması muxtar respublikada həm də idman infrastrukturunun müasir dövrün tələbləri səviyyəsində qurulmasından və qədim diyarda idmanın sürətlə inkişaf etməsindən xəbər verir. Beynəlxalq tədbirlərin keçirilməsində qazanılan mükəmməl təcrübə bura gələn qonaqların da diqqətini cəlb edir, onlar hər il daha da böyük maraqla şahmat festivallarında iştirak edir, dünyada tanınan zəka sahiblərinin qədim diyara üz tutması Naxçıvanı özünəməxsus şahmat mərkəzinə çevirir.

Dünyanın idman ictimaiyyətinin diqqətini növbəti dəfə ölkəmizə yönəldən "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları ərəfəsində muxtar respublikada ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının keçirilməsi isə respublikamızın qlobal idman arenasında özünəməxsus yer tutduğunun göstəricisi kimi qiymətləndirilir. Beynəlxalq Şahmat Festivalının yüksək səviyyədə baş tutması, mötəbər idman yarışlarının Bakı şəhəri ilə yanaşı, qədim diyarda da keçirilməsi üçün geniş imkanların olduğunu bir daha göstərib.

Mayın 3-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının açılışı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov və Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov tədbirdə iştirak ediblər.

Beynəlxalq Şahmat Festivalında 10 ölkədən 300-dən artıq şahmatçı iştirak edib. İsveçrə sistemi üzrə keçirilən festivalda iştirak edən şahmatçılar arasında 16 beynəlxalq qrossmeyster və 17 beynəlxalq şahmat ustası da olub.

Mayın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov ilə görüşüb.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında əlaqələrin bugünkü inkişafı iki ölkə arasında daim güclənən strateji tərəfdaşlıq münasibətlərinin yeni səviyyəyə yüksəlməsində xüsusi rol oynayır. Bu gün muxtar respublikalar arasında ticarət-iqtisadi, təhsil, səhiyyə və digər sahələrdəki əməkdaşlıq müasir dövrün çağırışlarına uyğun olaraq sürətlə inkişaf edir. Bu əlaqələrin möhkəmlənməsində məhz Naxçıvanın göstərdiyi təşəbbüslər həlledici rol oynayıb. 2012-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Gürcüstanın Acarıstan Muxtar Respublikasına 3 günlük səfəri ikitərəfli əlaqələrin inkişafının başlanğıcı olub. Ötən il iyunun 11-də Acarıstan Muxtar Respublikasının nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına işgüzar səfərə gəlməsi münasibətlərin inkişafına yeni dinamika qazandırıb.

Səmərəli əməkdaşlığın inkişafında xüsusi rol oynayan qarşılıqlı səfərlər bu il də davam etdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mayın 5-də Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfərə gedib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mayın 5-də Acarıstan Muxtar Respublikası hökumətinin rəhbəri Zurab Pataradze ilə görüşüb. Ali Məclisin Sədri Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfərə dəvətə, eləcə də göstərilən diqqət və qonaqpərvərliyə görə Zurab Pataradzeyə təşəkkür edib, yenidən Batumidə olmaqdan məmnunluğunu bildirib.

Söhbət zamanı Naxçıvan və Acarıstan Muxtar respublikaları arasında əlaqələrin inkişaf perspektivləri, Naxçıvan ilə Batumi arasında birbaşa çarter reyslərin açılması, regionda aparıcı tur-operatorların əlaqələrinin və kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, logistik mərkəzlərin yaradılması, turist axınının artımı və qarşılıqlı maraqdoğuran digər məsələlər müzakirə olunub.

Görüşlərin nəticəsi bir daha deməyə əsas verir ki, muxtar respublikalar arasındakı əlaqələr inkişaf edir. Gələcəkdə iş adamları arasında əlaqələrin genişləndirilməsi və qarşılıqlı investisiya imkanlarının müzakirə olunması üçün Naxçıvan və ya Batumi şəhərlərində ikitərəfli görüşlərin keçirilməsi isə əlaqələrin yeni mərhələdə inkişafına əsaslı təsir göstərəcək. Bu gün Naxçıvan Dövlət Universiteti ilə Batumi Dövlət Universiteti arasında əməkdaşlıq, acarıstanlı uşaqların müalicə üçün Naxçıvana, Duzdağ Fizioterapiya Mərkəzinə gətirilməsi əlaqələrin inkişafına, insanlarımız arasında ünsiyyətin daha da möhkəmlənməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Acarıstan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində mayın 6-da Şota Rustaveli adına Batumi Dövlət Universitetində olub.

Ali Məclisin Sədri Azərbaycan-Gürcüstan təhsil və elmi əlaqələrinin inkişafına göstərdikləri səylərə görə universitetin professor-müəllim heyətinə təşəkkür edib. Sonra Ali Məclisin Sədri Batumi Dövlət Universitetində fəaliyyət göstərən "Heydər Əliyev-Azərbaycanşünaslıq Mərkəzi" və "Acarıstan-Naxçıvan Muxtar Respublikası" dostluq auditoriyası ilə tanış olub.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Gürcüstanın Acarıstan Muxtar Respublikasına rəsmi səfəri başa çatıb.

Ötən ay ölkəmizdə, o cümlədən muxtar respublikamızda faşizm üzərində tarixi Qələbənin 72-ci ildönümü qeyd olunub. Azərbaycan xalqı faşizm üzərində qələbəyə mühüm töhfələr verib, cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onlar arasında çox sayda naxçıvanlı da olub. Naxçıvanlılar müharibədə qəhrəmancasına döyüşüb, qələbənin qazanılmasında öz töhfələrini veriblər. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb, göstərdikləri igidliklərə görə 3 naxçıvanlı Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülüb, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 600-ə yaxını orden və medallarla təltif olunub.

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gələrək Böyük Vətən müharibəsi veteranları ilə görüşüb, onları alman faşizmi üzərində qələbənin 72-ci ildönümü münasibətilə təbrik edib.

Ali Məclisin Sədri kompleksdəki abidənin önünə tər gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə dərin ehtiramını bildirib.

Blokada vəziyyətində yaşayan Naxçıvanın qlobal iqtisadi böhranın mənfi təzahürlərinin meydana gəldiyi, tarazlaşma proseslərinin ağrılı keçdiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olması və ən əsası, bu inkişafın davamlılığını təmin etməsi böyük uzaqgörənliklə müəyyənləşdirilmiş iqtisadi strategiyanın nəticəsində mümkün olub. Bu gün muxtar respublikanın inkişafında yaxından iştirak edənlərin, öz fəaliyyətləri ilə fərqlənənlərin, ulu öndərin yoluna, dövlətçiliyə töhfələr verənlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin, Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilib.

Ali Məclisin Sədri təltif olunanları və onların timsalında bütün muxtar respublika əhalisini ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümü və Qələbə bayramı münasibətilə təbrik edib, gələcək işlərində uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri medalları, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini, Azərbaycan Respublikası Prezidentinin mükafatını təqdim edib.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı və mövcud turizm imkanları tələbata uyğun yeni xidmət sahələrinin yaradılmasını zərurətə çevirir. Aparılan quruculuq işlərində bu amil əsas götürülür, müasir xidmət sahələri istifadəyə verilir. Mayın 10-da Naxçıvan şəhərində yeni xidmət sahəsi – "İdeal" ətriyyat və kosmetika mağazası fəaliyyətə başlayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Ali Məclisin Sədri yeni xidmət sahəsinin yaradılmasında əməyi olanlara təşəkkür edib, xidmət sahəsinin fəaliyyətinin təşkili ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verib.

Sürətli sosial-iqtisadi yüksəlişi ilə diqqətləri üzərinə cəlb edən Naxçıvan Muxtar Respublikasına, demək olar ki, hər ay dünyanın nüfuzlu dövlətlərinin səlahiyyətli nümayəndələri səfər edir, muxtar respublikanın iqtisadi inkişafı, qədim tarixi, füsunkar təbiəti, yaradılmış möhtəşəm infrastrukturu ilə tanış olurlar, əlaqələrin möhkəmləndirilməsi istiqamətində müzakirələr aparırlar.

Mayın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İmre Laslotski, mayın 18-də Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, mayın 23-də İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stav və həmin gün Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri xanım İvana Duarte ilə görüşüb. Görüşlərdə gələcək əməkdaşlıq imkanları ətraflı müzakirə olunub.

Ötən ay Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnir keçirilib. Mayın 30-da Naxçıvan Muxtar Respublika Stadionunda "Araz-Naxçıvan" və "Mərkəzi Ordu İdman Klubu" arasında futbol üzrə "Heydər Əliyev kuboku"nun son turunun görüşü olub.

Ali Məclisin Sədri turnirin son oyununu izləyib.

Oyundan sonra mükafatlandırma mərasimi keçirilib. Muxtar respublika rəhbəri futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda keçirilən turnirin qalibi olan "Mərkəzi Ordu İdman Klubu"na qızıl medalları və kuboku təqdim edib.

Ali Məclisin Sədri turnirdə mübarizə aparan komandaların oyunçuları ilə görüşüb, onlara təşəkkürünü bildirib və komandalarla xatirə şəkli çəkdirib.

Yüksək iqtisadi potensiala malik muxtar respublikada bu gün bütün dövlət proqramları, infrastruktur layihələri uğurla həyata keçirilir, irimiqyaslı quruculuq, abadlıq işləri aparılır. Muxtar respublikada aqrar siyasət, sənayeləşmə uğurla reallaşdırılır, kəndlər abadlaşır, şəhərlər daha da inkişaf edir, əhalinin sosial problemləri həll olunur. Bu gün muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri Avrasiyanın inkişaf etmiş regional mərkəzləri ilə müqayisə olunur. Müasir Naxçıvan dahi şəxsiyyət Heydər Əliyevin dövlətçilik ideallarının işığında yaradıcı təfəkkürün real və möhtəşəm nəticələri əsasında ardıcıl olaraq inkişaf edən bir diyar kimi şan-şöhrət qazanmaqdadır. Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyevin siyasi xəttinin təntənəsinin əsaslı nümunələrindən biridir.

Ali Məclis Sədrinin qeyd etdiyi kimi: ***"Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolu ölkəmizdə davam etdirilir, yaşadılır. Azərbaycanda Heydər Əliyev yoluna alternativ yoxdur. Heydər Əliyev yolu dövlətçilik, dövlət-xalq birliyi, müstəqillik və inkişaf yoludur. Azərbaycan dövlətinin inkişafı, müstəqilliyimizin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, xalqımızın firavan həyatının təmin olunması ulu öndər Heydər Əliyev yolunun bəhrəsidir".***

Rauf KƏNGƏRLİ

## İtaliyanın “Daily cases” saytında Naxçıvanın Duzdağı haqqında məqalə yerləşdirilib

***İtaliyanın nüfuzlu “Daily cases” xəbər saytında naxçıvanlı jurnalist Sara Əzimovanın “Dünyada bənzəri olmayan şəfa ocağı” sərlövhəli məqaləsi yerləşdirilib.***

Məqalədə müəllif əvvəlcə “Planetin cinayətsiz regionu”, “Nuh Peyğəmbərin yurdu”, “Şərqə açılan qapı”, “Kiçik Avropa” adlarını özündə qürurla daşıyan Naxçıvan Muxtar Respublikası haqqında italiyalı oxuculara məlumat verib. Yazıda Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ibtidai icma, antik, orta əsrlər və yeni dövr tarixinin maddi-mədəniyyət nümunələri ilə zəngin bir diyar olduğu qeyd edilib.

Müəllif Naxçıvanın təbii ehtiyatlarının 90 milyon tonunu özündə cəmləşdirən duz mədənində yaradılan möcüzəli Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyətindən, mərkəzin son illərdə Naxçıvanda həm yerli, həm də xarici turistlərin ən çox üz tutduğu ünvanlardan biri olmasından söz açıb. Qeyd edib ki, dünyada bir neçə yerdə belə xəstəxana fəaliyyət göstərir. Sual oluna bilər, bəs niyə Naxçıvandakı Duzdağın dünyada bənzəri yoxdur? Cavab isə belədir: Duzdağ Fizioterapiya Mərkəzi dünyada mövcud olan həmin müalicə ocaqlarından bir çox üstünlükləri ilə seçilir. Məsələn, ən yaxşı müalicə ocağı kimi tanınan Ukraynadakı xəstəxana 206 metr yerin dərinliyində yerləşdiyindən xəstələr buraya liftlə enməli olurlar. Bu isə təzyiqin birdən-birə dəyişməsinə və xəstələrin səhhətinin pisləşməsinə gətirib çıxarır. Həkimlərin fikrincə, bu şaxtada rütubətin normadan artıq olması və partlayıcı gücə malik metan qazı kimi zəhərləyici qazların normadan çoxluğu burada öz təsirini göstərir. Naxçıvandakı şaxtalar isə dağın altındakı tuneldə yerləşdiyindən bu kimi hallara rast gəlmək mümkün deyil. Burada temperatur sabitdir, nisbi rütubət aşağıdır, havada zərərli qazlar yoxdur. Xəstəxana horizontal şəkildə olduğundan buraya gələn xəstələr, təxminən, 300 metr məsafəlik yolu özləri piyada qət edirlər. Bu isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır.

Jurnalistin İtaliyanın saytında yazını verməkdə məqsədi dünyanın müxtəlif ölkələrində yaşayan və bu xəstəlikdən əziyyət çəkən insanları məlumatlandırmaqdır. Yazıya belə yekun vurulur: “Məlumdur ki, sağlamlığın bərpa olunması üçün təbii üsullarla müalicə ən yaxşı vasitədir. Ən sərfəli qiymətlərlə




Naxçıvanın Duzdağında sağlamlığınıza qovuşa bilərsiniz. Siz həm də Naxçıvan torpağında dünyada bənzəri olmayan bir çox tarixi abidələrlə də tanış olmaq imkanı əldə edəcəksiniz. Bu məmləkətdə turistlər üçün vacib olan inkişaf və sabitlik var”.

Qeyd edək ki, saytda Duzdağ Fizioterapiya Mərkəzi və “Duzdağ” oteli ilə bağlı fotolar da yerləşdirilib.

## 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə silsilə tədbirlər olub





***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında silsilə tədbirlər keçirilib.***

Muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri də bu aksiyalarda mütəşəkkilliklə iştirak ediblər. Naxçıvan şəhərinin 5, 8, 12, 17 nömrəli tam orta məktəblərində təşkil edilən aksiyalar xüsusilə diqqətçəkən olub. Aksiyaların sonunda ekoloji tərbiyə dərnəkləri şagirdlərinin əl işlərindən ibarət sərgiləri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Bu tədbirlərin davamı olaraq Bəhruz Kəngərli adına Sərgi Salonunda “Ətraf mühit və biz” mövzusunda gənclərin rəsm əsərlərindən ibarət sərgi-müsabiqə keçirilib.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat bağında isə “Ətraf mühiti necə qoruyaq?” mövzusunda diskussiya təşkil olunub.

Silsilə tədbirlər Naxçıvan Dövlət Universitetinin ərazisində keçirilən təmizlik aksiyası ilə yekunlaşıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Təhsil nazirlikləri tərəfindən təşkil edilən aksiyanın məqsədi gənclərin ekoloji biliklərinin zənginləşdirilməsi, onlara təbiətə məhəbbət hisslərinin aşılanmasından ibarət olub.

Aksiyadan əvvəl Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev və Naxçıvan Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov çıxış ediblər. Onlar muxtar respublikada ətraf mühitin mühafizəsi istiqamətində görülən işlərdən, bu sahədə tələbə-gənclərin üzərinə düşən vəzifələrdən bəhs edib, ötən ayın son günlərindən etibarən başlayan ətraf mühitin mühafizəsi ilə bağlı tədbirlərin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, bu aksiyalar gənclərin maarifləndirilməsinə, Naxçıvan şəhərində və bölgələrdə yaşıllıqların qorunmasına, ərazilərin məişət tullantılarından təmizlənməsinə, gənclərimizin muxtar respublikanın təbiəti haqqında ətraflı məlumat almasına səbəb olur. Həmçinin bu aksiyaların iştirakçıları diskussiyalar vasitəsilə tullantıların idarə olunması sahəsində əsas anlayışlar, tullantıların növləri və zərərsizləşdirilməsi üsulları haqqında biliklərə yiyələnib, bu tədbirlərdə ekologiyaya vurulan ziyanın mümkün qədər azaldılması yollarını müzakirə ediblər. Belə tədbirlər bundan sonra da davam etdiriləcək.





Sonra aksiyaya start verilib. Tədbirdə gənclər ərazini plastik qablardan, kağız, karton parçalardan, sellofan torbalardan və digər məişət tullantılarından təmizləyiblər. Toplanan məişət tullantıları tonqal qalanaraq yandırılıb.

Sonda İncəsənət fakültəsinin tələbəsi Aysu Məmmədova 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə bağlı muxtar respublika əhalisinə müraciət səsləndirib.

Müraciətdə deyilir: “Hörmətli muxtar respublika sakinləri! Əziz gənclər!

Muxtar respublikada aparılan quruculuq işləri, salınan yaşıllıq zolaqları, tarixi abidələrin, görməli yerlərin bərpa olunaraq istifadəyə verilməsi göstərir ki, muxtar respublikamızda tarixi irsin bərpasına və abadlaşdırma işlərinə, ətraf mühitə daim böyük qayğı göstərilir. Bu qayğı nəticəsində yaradılan şərait – abad, təmiz mühit gələcəyimiz olan gənclərin sağlam mühitdə böyüməsi üçündür.

Belə bir mühitdə böyüyən biz gənclər də yaradılan şəraiti, vətənimizdə olan tükənməz, əvəzsiz nemətləri qorumalıyıq. Təbiətimizə sahib çıxmalı, onu zərərli tullantılardan, çirklənmələrdən mühafizə etməliyik. Hətta bunu tək özümüz görməməliyik, onu bütün muxtar respublika sakinlərinə də aşılamalıyıq. Sübut etməliyik ki, yeni tikilən obyektləri, küçələri, parkları, tarixi abidələri, çayları, gölləri, yeni salınmış yaşıllıq zolaqlarını, bir sözlə, ətraf mühiti qorumaq hamımızın borcudur.

Unutmayaq ki, ətraf mühitin çirklənməsi bizim həyatımıza, havanın, suyun, qidanın təmizliyinə də təhlükədir. Gəlin birlikdə bu təhlükə ilə mübarizə aparaq, dövlətimizin indiki nəsil üçün yaratdıqlarını qoruyaraq gələcək nəsillərə çatdıraq”.

Xatırladaq ki, 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar olaraq muxtar respublikanın bütün bölgələrində də “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında aksiyalar keçirilib. Aksiyalar zamanı park və xiyabanların ərazisinə gül kolları əkilib, yaşıllıq sahələri məişət tullantılarından və alaq otlarından təmizlənib, ağacların dibləri yumşaldılıb, ərazilərdə suvarma işləri həyata keçirilib. Bundan başqa, gənclərlə ətraf mühitin mühafizəsi sahəsində maarifləndirmə işləri aparılıb.

**Səbuhi HÜSEYNOV**

## Naxçıvanda *“Göycə”* festivalı keçirilib



*Qədim Naxçıvan özünün torpaq və təbii iqlim şəraiti ilə yanaşı, əkinçilik və bağçılıq mədəniyyəti ilə də dünyada tanınır. Ötən ildən başlayaraq şəhərin qədim tarixi hissəsi olan “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Göycə” festivalı da muxtar respublikada yetişdirilən, dadı-tamı ilə çox məşhur olan bu meyvənin tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.*






İyunun 3-də başlayan ikinci göycə festivalına maraq böyük idi. Səhər saat $9^{00}$-da artıq Naxçıvanqalanın geniş ərazisində qələbəlik idi. Yüzlərlə Naxçıvan sakini və şəhərdəki turistlər göycə sərgiləri ilə tanış olmaq üçün bura axın edirdilər.

Əvvəlcə Naxçıvanqalanın mərkəzində festivalın açılış tədbiri keçirildi. Tədbirin aparıcıları xalqımıza məxsus ənənələrin yaşadılmasında, naxçıvanlı bağbanların, xalq seleksiyaçılarının hələ VII əsrdən bəri yetişdirməyə başladığı göycənin şöhrətinin yayılmasında “Göycə” festivalının əhəmiyyətindən danışaraq bildirdilər ki, Naxçıvanda yetişən göycə ilə yanaşı, ləziz dadı ilə seçilən alma, armud, cəviz, badam, üzüm sortları da yaxşı tanınır. Elə bu səbəbdən də hələ orta əsrlərdən Naxçıvan “meyvə cənnəti” adlandırılıb.

Tədbirdə çıxış edən AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov qeyd etdi ki, Naxçıvanda göycənin iriliyinə, dadına və digər genetik xüsusiyyətlərinə görə 5-dən çox formasına rast gəlinir. Azərbaycan dilində yalnız Naxçıvan dialektinə məxsus “göycə” sözü göy-yaşıl mənası ilə bərabər, həm də yeni, təzə mənasında işlənilir ki, bu da yazda ilk yetişən faraş meyvə kimi Naxçıvan göycəsinə aid olunur. Alim bildirdi ki, Naxçıvanda, əsasən, Arazboyu maili düzənlik ərazilərdə daha yaxşı məhsul götürülən göycə bağlarının salınması üçün əlverişli ekoloji şərait vardır. Məhz buna görə də muxtar respublika rəhbərinin Naxçıvanda meyvəçiliyin inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğı nəticəsində göycə kimi brend məhsullarımızın istehsalının daha da artırılması, bu sahədə elmi tədqiqatların aparılması, bağçılıqda dünya standartlarının mənimsənilməsi üçün geniş imkanlar açılıb. Bu mənada, yazın ilk yeyilən meyvəsi olan göycənin, sözün əsl mənasında, vətəni olan Naxçıvanda meyvəçiliyin inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər artıq bəhrəsini verməyə başlayıb.

Sonra festival üçün gətirilmiş Naxçıvan göycəsinə baxış oldu. Muxtar respublikada göycənin ən çox yetişdirildiyi Şərur, Babək, Kəngərli, Culfa və Ordubad rayonlarından 200-dən çox bağbanın gətirdiyi meyvələrə maraq böyük oldu. Festivalda Naxçıvan Dövlət Filarmoniyasının maraqlı konsert proqramı da iştirakçılarda xoş ovqat yaratdı. İki gün ərzində üst-üstə 20 tondan artıq göycənin gətirildiyi festivalda vətəndaşlara nümunəvi satış xidməti də təşkil olundu. Naxçıvan bazarlarında ilin bu mövsümündə göycə bolluğu olsa da, nəfis şəkildə bəzədilmiş stendlərdə sərgilənən göycələrin və göycədən hazırlanmış məhsulların yarısından çoxu ilk gündəcə satıldı. Festivalın ikinci günündə də Naxçıvanqala izdihamlı oldu, bağbanlar öz məhsullarını, demək olar ki, hamısını satdılar. Festivalda həmsöhbət olduğumuz bağbanlardan Məhərrəm Novruzov, Nicat Quliyev və digərləri gətirdikləri göycə məhsuluna marağın böyük olduğunu bildirdilər, festivalın təşkilinə görə dövlətimizə minnətdarlıqlarını ifadə etdilər.

Festivalın sonunda isə “Ən yaxşı göycə” müsabiqəsinin qaliblərinə diplomlar təqdim olundu. Müsabiqənin nəticələrinə əsasən festivala gətirdikləri göycə məhsuluna görə Şərur rayonunun Danyeri kənd sakini Yaqub Həsənov birinci, Naxçıvan şəhər sakini Vidadi Quliyev ikinci, Babək rayonunun Şıxmahmud kənd sakini Nüsrəddin Musayev üçüncü yerə layiq görüldülər. Ordubad rayonunun Sabirkənd sakini Xəlil Fərəcov isə həvəsləndirici yer tutdu.

**Əli CABBAROV**

## Respublika fənn olimpiadalarının qalibləri mükafatlandırılıblar



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil siyasəti bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilə göstərilən diqqət və qayğının nəticəsidir ki, təhsil sahəsində qazanılan uğurların sayı getgedə artmaqdadır. Bu gün muxtar respublikanın ən ucqar kəndlərində belə, şagirdlər müasir standartlara cavab verən, yeni avadanlıqlarla təchiz olunmuş məktəblərdə təhsil alırlar. Ötən il muxtar respublikada 19-dan çox təhsil müəssisəsi tikilib və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Bu ilin ötən dövrü ərzində 5 məktəb binasının açılışı olub.

Bildirilib ki, yaradılan bu şəraitin qarşılığında şagirdlər səylə çalışır, yeni-yeni uğurlara imza atırlar. Qürurverici haldır ki, 20 mindən çox iştirakçısı olan respublika fənn olimpiadasında finala qalmış 200 nəfərdən 20-si muxtar respublikanın təhsil müəssisələrinin şagirdləridir. Şagirdlərimiz bu olimpiadadan doğma Naxçıvanımıza 2-si qızıl olmaqla, 20 medalla qayıdıblar.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Rüstəm Həsənov "Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin respublika fənn olimpiadalarının nəticələri haqqında", Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin direktoru Günay Novruzova "Məktəbimizin fənn olimpiadalarında qazandığı uğurlar", Heydər Əliyev adına Hərbi Liseyin müəllimi Sevinc Ləzgiyeva "Fənn olimpiadalarının əhəmiyyəti" mövzusunda çıxış ediblər.

Daha sonra fənn olimpiadasında qızıl medal qazanmış Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin X sinif şagirdi Zöhrə Kəngərli olimpiada qalibləri adından çıxış edərək başda öz müəllimləri olmaqla, bütün təhsil işçilərinə, qalibiyyətlərində əməyi keçən hər kəsə minnətdarlığını bildirib. Qeyd edib ki, istər ölkə, istərsə də muxtar respublika rəhbərliyinin qayğısını üzərində hiss edən gənclər bundan sonra da böyük uğurlara imza atacaq, onlara olan etimadı doğrultacaqlar.

Sonda qaliblərə medallar, fəxri fərmanlar və müxtəlif hədiyyələr təqdim olunub.

## Magistraturaya qəbul imtahanının ikinci mərhələsi keçirilib

İyunun 5-də Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi 2017-2018-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının ikinci mərhələsini keçirib.

İmtahan Bakı, Naxçıvan və Gəncə şəhərlərində, ümumilikdə, 29 imtahan binasında aparılıb. İmtahanda şəffaflığın təmin olunması üçün 89 imtahan rəhbəri və 867 nəzarətçi-müəllim ayrılıb.

İmtahan bütün binalarda eyni vaxtda – saat $13^{00}$-da başlanıb və 1 saat 30 dəqiqə davam edib.



Muxtar respublikada imtahan Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin binasında keçirilib. Bunun üçün binada 15 imtahan zalı hazırlanıb. İmtahana 21 nəzarətçi-müəllim və 2 imtahan rəhbəri cəlb edilib, 224 bakalavr imtahan verib.

İkinci mərhələdə bakalavrlara seçdikləri proqram üzrə 5-i açıqtipli olmaqla, 50 test tapşırığı təqdim olunub. Hər düzgün cavab 1 balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

Fatma BABAYEVA

*Naxçıvan Dövlət Universitetində 2016-2017-ci tədris ilində Tələbə Elmi Cəmiyyətinin (TEC) xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekununa həsr olunmuş ümumuniversitet elmi konfransı keçirilib.*

## TEC-in yekun konfransı



Plenar iclası universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq TEC-i gələcəyin magistrlərinin, elmi tədqiqatçılarının yetişməsində mühüm rol oynayan bir təşkilat kimi səciyyələndirib. Rektor iclasın işinə uğurlar arzulayıb.

Elmi işlər üzrə prorektor, dosent Mübariz Nuriyev çıxış edərək Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən TEC-in tələbələrin elmi fəallığının və dünyagörüşünün artırılmasındakı rolundan, fakültələr üzrə TEC sədrlərinin tələbələrlə apardığı işlərdən danışıb. O, müəllim və tələbələrə keçiriləcək bölmə iclaslarında uğurlar arzulayıb, elmi rəhbərləri elmi-tədqiqat işlərinin qiymətləndirilməsində obyektiv olmağa çağırıb.

TEC-in qarşısında duran vəzifələr haqqında məruzə edən universitet TEC-in sədri, Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Bətulə Əlizadə bildirib ki, hər il olduğu kimi, cari tədris ilində də TEC-in iş planının tərtib olunması və tələbələrlə əlaqələrin gücləndirilməsi kimi məsələlərin həllinə baxılıb. Həmçinin il ərzində TEC-in kafedralar və fakültələr üzrə fəaliyyətində xeyli irəliləyişlərin olduğu da diqqətə çatdırılıb.

Elmi rəhbəri hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov olan Beynəlxalq münasibətlər ixtisası üzrə II kurs tələbəsi Aysu Cavadlı "Azərbaycan Respublikasının müstəqil enerji sisteminin yaradılmasında ümummilli lider Heydər Əliyevin rolu" mövzusunda hazırladığı elmi-tədqiqat işini təqdim edib. Vurğulanıb ki, 1969-cu ildə ulu öndərimiz respublika rəhbərliyinə gəldikdən sonra o vaxta qədər elektrik enerjisinin idxalı ilə məşğul olan ölkəmiz 1982-ci ildə artıq elektrik enerjisini ixrac edən respublikaya çevrilməyə müvəffəq olub. Yaradılma tarixi ümummilli liderimizin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək dünya standartlarına uyğun səviyyədə yenidən qurulmaqdadır.

Konfrans 46 bölmə üzrə işini davam etdirib. Burada tələbələr müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etməklə elmi məqalələrin bütün detallarını, cədvəlləri, şəkilləri, diaqramları əyani şəkildə konfrans iştirakçılarına təqdim ediblər. Sonra tələbələrin məruzələri dinlənilib, müzakirələr aparılıb.

Nərmin CABBAROVA

## Dünyanı rənglərlə bəzəyən rəssamla söhbət

Ötən günlərdə Naxçıvan şəhərinin Nizami küçəsindəki ikimərtəbəli binanın önündən keçərkən qarşılaşdığım bir mənzərə məni istər-istəməz ayaq saxlayıb dumduru su kimi şəffaf şüşələri olan bir pəncərədən içəri baxmağa sövq etdi. Sözün açığı, tez-tez qarşılaşmadığım bir mənzərə ilə rastlaşmışdım. İçəridə ağsaçlı, hündürboylu bir rəssam molbertin önündə durub kətan üzərində ilk eskizini çəkirdi. Başı o qədər işə qarışmışdı ki, mənim qapını açıb içəri girdiyimdən belə, xəbəri olmadı. Elə qapının kandarındaca durub, – "Salam, yorulmayasınız", – dedim. Qarşımdakı insan qeyri-ixtiyari geri qanrılıb, – Salam, xoş gördük, – deyib səmimiyyətlə gülümsədi, – yaxın gəl, – dedi. Onu Naxçıvan Muxtar Respublika Rəssamlar Birliyində keçirilən fərdi rəsm sərgisindən tanıyırdım. Emalatxanasına baş çəkdiyim rəssam, sərgisində uzun-uzadı əsərlərinə tamaşa etdiyim, ancaq təəssüratlarımı bu əsərlərin müəllifi ilə bölüşməyə imkan tapa bilmədiyim Qəhrəman Tağıyev idi.

Beləcə, emalatxanadakı kiçik və bu qədər ətrafda boya olmasına rəğmən, tərtəmiz olduğuna təəccüb etdiyim masanın arxasında qabaqqənşər oturub onunla söhbətə körpü saldıq. Söhbət əsnasında öyrəndim ki, o, 1947-ci ildə Naxçıvan şəhərində anadan olub. Məktəb illərində teatr rəssamı Məmməd Qasımov, görkəmli rəssam Sabir Qədimov onda bu sənətə maraq oyadıb. Valideynlərinin təkidi ilə Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji İnstitutunda Rus dili və ədəbiyyatı ixtisası üzrə təhsil alıb. Lakin rəssamlıq sənəti onu özünə daha çox cəlb etdiyindən pedaqoji fəaliyyətdən boş vaxt tapdıqca rənglərin sirrini açmağa çalışıb, ərsəyə gətirdiyi əsərlər ilə respublika və onun hüdudlarından kənardakı mötəbər sərgilərdə iştirak edib. 1987-ci ildən "Böyük bağ"da ozamankı Mədəniyyət Nazirliyinin nəzdində yaradılan rəssamlıq emalatxanasına rəhbərlik edib, rəssamlıqla bərabər, bədii tərtibat işləri ilə də məşğul olub. 1980-2017-ci illər ərzində müsabiqə və sərgilərin iştirakçısı olub. 1996-cı ildə Naxçıvan Müəllimlər İnstitutunda ixtisasdəyişmə kursu keçərək həmin kursu bitirib, 2010-cu ilədək rəsm-rəsmxət müəllimi kimi fəaliyyət göstərib. "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm festivallarında iştirak edib. 2013-cü ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvüdür. Elə həmin il Naxçıvan Biznes Mərkəzində və 2015-ci ildə Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda fərdi sərgisi keçirilib. O həm də Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Qəhrəman Tağıyevlə söhbətimizdən bəzi məqamları oxucularımızla da bölüşməyi lazım bildik:

***– Qəhrəman müəllim, yaradıcılıqda daha çox kimdən bəhrələnirsiniz?***

– Bəhruz Kəngərli məktəbindən. Bəhruz Kəngərli tək mənim üçün yox, bütün Azərbaycan rəssamları, realist rəssamlar üçün bir Prometeydir. Çünki o, birinci ali təhsilli rəssam olmaqla bərabər, Azərbaycan rəssamlığına ilkləri gətirən sənətkar olub. Əsərlərimdə Naxçıvan mənzərələrinə üstünlük verməyimin əsas səbəblərindən biri də budur ki, özümü Bəhruz Kəngərli məktəbinin davamçısı hesab edirəm.

***– Davamçılarınız varmı? Ən çox hansı davamçınızın gələcəyindən və istedadından tam əminsiniz?***

– Çox sevinirəm ki, bu gün rəssamlıq sənətini öyrətdiyim gənclər arasında ölkənin mötəbər incəsənət məktəblərinin tələbələri var. Mənim üçün bütün tələbələrim eyni dərəcədə istedadlıdır. Ancaq onlar arasında iki tələbəm var ki, bu gənclərin gələcəkdə yaxşı rəssam olacaqlarına inanıram. Onlardan biri Naxçıvan Dövlət Universitetinin tələbəsi İlqar Seyidov, o biri isə hal-hazırda Bakı İncəsənət Universitetində təhsil alan Fərəh Tağıyevadır. Bir neçə tələbəm var ki, onlar da yaxşı gələcək vəd edirlər.

***– Naxçıvanda gənclərin bu sahədə yetişməsi üçün yaradılan şərait barədə nə deyə bilərsiniz?***

– 1995-ci ildən sonra bütün sahələrdə olduğu kimi, rəssamlığın inkişafında da əsaslı dönüş yaranıb. Buna əyani misal olaraq Bəhruz Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyinin fəaliyyətə başlamasını göstərmək olar. Rəssamlar Birliyinin Sərgi Salonunun əsaslı təmir edilməsi, Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinə çevrilməsi, birliyin yeni inzibati binasının və Bəhruz Kəngərli adına Sərgi



Salonunun rəssamların ixtiyarına verilməsi, qurumun 40 illik yubileyinin keçirilməsi rəssamlıq sənətinə göstərilən qayğının təzahürüdür. Muxtar respublika rəhbərinin imzaladığı müvafiq sərəncam əsasında görkəmli rəssam Bəhruz Kəngərlinin Naxçıvan şəhərində abidəsi ucaldılıb və həmin ərazi Rəssamlar Parkı adlandırılıb. Bütün bu görülən işlər rəssamlara göstərilən dövlət dəstəyindən xəbər verir.

Bu gün gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılır, onların yaradıcılıq imkanları artırılır, müvafiq iş və emalatxana ilə təmin olunurlar. Rəssamlar Birliyinin rəsmi internet saytının yaradılması, birliyin gənclər bölməsinin təşkil edilməsi, muxtar respublikada "Naxçıvan – bəşəriyyətin beşiyi" adlı rəsm festivallarının, mütəmadi sərgilərin keçirilməsi, rəssamların fəxri adlarla, orden və medallarla təltif olunması, onların əl işlərinin satışının təşkil edilməsi bu sahəyə göstərilən diqqət və qayğının əyani sübutudur. Muxtar respublikanın ali təhsil ocaqlarında müvafiq ixtisasların açılması gənc rəssam nəslinin yetişməsi və orta məktəblərdə təsviri incəsənət dərslərinin tədrisinin daha yaxşı aparılması üçün göstərilən böyük təşəbbüsdür.

***– Dünya rəssamlıq sənətinə böyük töhfələr vermiş hansı rəssam daha çox xoşunuza gəlir və səbəbi?***

– XIX əsrdə rus rəssamlıq sənəti böyük bir inkişaf yolu keçirdi. Bu dövrün rəssamları içində ən çox sevdiyim rus rəssamı Levitandır. Onun əsərlərində mülayimlik və lirika ən yüksək həddə idi. Məsələn, onun "Qızıl payız" əsəri dünya rəssamlıq sənətinin incilərindən biridir. Bəlkə də, minlərlə rəssam payıza aid əsərlər çəkib. Ancaq onun "Qızıl payız" əsərinə tamaşa edəndə insan hansı fəsli yaşamasına baxmayaraq, payızın sərin havasını, çayın zümzüməsini, Günəşin ılıq hərarətini hiss edir. Dünya rəssamlarından isə İtaliya rəssamlıq sənətinin görkəmli nümayəndəsi Rafaelin əsərləri, məncə, bənzərsizdir.

***– Sərginiz zamanı hansı əsəriniz daha çox maraq oyatdığını gördünüz?***

– Bu sərgimdə gündən-günə inkişaf edən muxtar respublikamızın real mənzərəsini əks etdirməyə çalışmışdım.

Sualınıza cavab olaraq deyə bilərəm ki, əsərlərimin hamısı mənim üçün eyni əhəmiyyətdə idi. Sözün açığı, elə buna görə tamaşaçıların hansı əsərə daha çox diqqət yetirdiyini sezmədim. Sənətsevərlərin sərgi əsnasında gəlib tez-tez öz fikirlərini bildirməsi ona dəlalət edirdi ki, mən nələrisə edə bilmişəm. Yaradılan şəraitə görə sərginin təşkilatçılarına öz minnətdarlığımı bildirirəm.

***– Maraqlı müsahibə üçün sağ olun!***

Səbuhi HÜSEYNOV

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 463